# MÜƏLLİM olmaq istəyirəm...





## Müəllimlərin işə qəbulu üzrə imtahan prosesi izlənilib

İyulun 15-də müəllimlərin işə qəbulu üzrə test imtahanlarının izlənilməsi məqsədilə Azərbaycan Texniki Universitetinin idman kompleksinə infotur təşkil edilib.

İnfoturda təhsil nazirinin müavini Muxtar Məmmədov, millət vəkilləri və media nümayəndələri iştirak ediblər. Qonaqlar imtahanın gedişini yaxından izləyib, bu proseslə bağlı fikir mübadiləsi aparıblar.

Təhsil nazirinin müavini Muxtar Məmmədov infotur iştirakçılarına cari ildə müəllimlərin işə qəbulu prosesində tətbiq edilən yeniliklər barədə məlumat verib. Nazir müavini bildirib ki, müəllim tədris etdiyi fənn üzrə yaxşı biliyə malik olmalı və biliyini şagirdlərə düzgün çatdırmağı bacarmalıdır. Test imtahanı suallarının canlı yayımda təhlilinə toxunan nazir müavini bu prosesin əhəmiyyətini diqqətə çatdırıb.

Daha sonra təhsilverənlərin sertifikasiya prosesindən danışan Muxtar Məmmədov müəllimlərin bu yöndə məlumatlandırılmasının vacibliyini vurğulayıb, bu prosesin əsas məqsədinin müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsindən ibarət olduğunu deyib.

İnfoturda iştirak edən millət vəkilləri də öz növbəsində təhsil sahəsində aparılan yeniliklərdən, cəmiyyətdə müəllim peşəsinin nüfuzundan danışıblar. Həmçinin təhsil sahəsində aparılan islahatların uğurlu nəticələrindən söz açılıb, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində görülən işlərə toxunulub.

***

İyulun 19-da müəllimlərin işə qəbulu üzrə imtahan prosesinin izlənilməsi məqsədilə Sumqayıt şəhəri 12 nömrəli tam orta məktəbə də infotur təşkil edilib.

İnfoturda Təhsil Nazirliyinin əməkdaşları, millət vəkilləri, ali məktəblərin rektorları və media qurumlarının rəhbərləri iştirak edib.

İnfotur iştirakçılarına müəllimlərin işə qəbulu prosesində bu il tətbiq olunan yeniliklər barədə məlumat verilib, Təhsil İnstitutunun müəllim olmaq istəyən namizədlərə dəstək göstərmək, onların hazırlığına istiqamət vermək üçün gördüyü işlər diqqətə çatdırılıb. Həmçinin işə qəbul prosesi ilə bağlı vebinar və seminarların təşkil olunduğu bildirilib.

Qeyd olunub ki, müəllimlərin işə qəbulu müsabiqəsinin test mərhələsində namizədlərə təqdim edilmiş ixtisas üzrə suallar və onların cavabları hər gün Təhsil TV-nin canlı yayımında təhlil olunur.

İnfotur iştirakçıları imtahan prosesini izləyib və bu proseslə bağlı fikir mübadiləsi aparıblar.